## *Ermənilər xof içərisindədir:*

# "İlham Əliyevin Qarabağdan sonra hədəfi Yerevandır"

Ermənistanı qorxuya salan növbəti məqam Prezident İlham Əliyevin "Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb" fikirləri olub.

Ermənistanda bu fikir insanların təşvişini daha da artırıb. Açıq şəkildə qeyd olunur ki, Nikol Paşinyanın cəfəngləri, rəsmi İrəvanın uydurduğu yalanlar daha erməni xalqı tərəfindən qəbul olunmur.

Ermənilərin sosial şəbəkələrdə paylaşılan statuslarından və verilən şərhlərdən qənaətə gəlmək olar ki, artıq Ermənistan həm hərbi, həm də diplomatiya cəbhəsində Azərbaycana daha böyük fərqlə uduzmağın gerçəkliyini anlamağa başlayıb. Sosial mediada paylaşılan statuslardan və yazılan şərhlərdən bir neçəsini diqqətinizə çatdırırıq.

Manvel Qasparyan adlı feysbuk istifadəçisi səhifəsində maraqlı paylaşım edib. O, İlham Əliyev və Paşinyanın şəkillərini paylaşaraq yazır ki, Azərbaycan Prezidenti faktiki olaraq Ermənistanı əzir: "Artıq İlham Əliyev Yerevana iddia edir. Amma biz buna cavab verə bilmirik. İlham Əliyev bəyan edir ki, Ermənistan Qarabağ məsələsində yenidən iddia irəli sürərsə, daha ağır vəziyyətə düşəcək. Əslində, bu belədir".

İşxan Nalbadyan adlı biri instaqramda Paşinyan tərəfdarlarının daha çox rəy bildirdiyi xəbərə maraqlı bir şərhlə diqqət çəkib: "Acı reallıq olsa da, qəbul edək ki, Paşinyanın pafoslu çıxışlarına, onun aktyorluğuna yalnız Ermənistanda inanırlar. İlham Əliyev Artsaxı (red. Qarabağ) qaytardı, indi Bakıdan Paşinyana, Sarkisyana od püskürür, bizimkilər isə hakimiyyəti qorumağın və hakimiyyətə gəlməyin yollarını axtarırlar".

"Odnokolassniki" sosial şəbəkəsində İlham Əliyevin son çıxışı ilə bağlı xəbərə münasibət bildirən, profilinə baxdıqda həkim olduğu anlaşılan Henrix Qasparyan yazır ki, səsləndirilən düz fikirlər niyə bəzilərini narahat edir: "Biz yalan danışmırıq. Öz vətəndaş mövqeyimizi nümayiş etdiririk. Çəkinmədən fikrimi bildirirəm. İstəyirlər gəlib məni aparsınlar. Əliyev bizim rəhbərlərimiz haqda kifayət qədər sərt tonda danışır, açıq şəkildə bildirir ki, bir daha müharibə başlayarsa, Ermənistanın sonu olacaq. Paşinyan isə haradadır, bilmirik. Nə günlərə qaldıq". (Məyusluq işarəsi)

Tviter sosial şəbəkəsində İlham Əliyevin Qərbi Azərbaycanla bağlı açıqlamalarını retwitt edərək rəy bildirən Aşot Levonyan adlı istifadəçi isə yazır: "Çox təəssüf hissi keçirirəm. Qarabağda ağır məğlubiyyətə uğradıq və susduq. Çünki bizə başqa ölkənin torpağı lazım deyildi. İndi isə öz ərazilərimizi itirməkdən qorxuruq. Ayılmaq lazımdır. İlham Əliyevin "Artsax"dan (red. Qarabağ) sonra hədəfi Yerevandır".

Eranuş Zovanuşyan adlı riyaziyyat müəllimi "Odnoklassniki" sosial şəbəkəsində İlham Əliyevin Qərbi Azərbaycanla bağlı çıxışının əks olunduğu videomateriala münasibət bildirib: "Ermənistan Paşinyanın regionlara səfərindən yox, İlham Əliyevin son bəyanatından danışır. Görəsən bizim nə vaxt normal bir rəhbərimiz olacaq? İlham Əliyev indiyəcən sülhdən danışa-danışa Qarabağı bizdən geri aldı. İndi isə açıq şəkildə Gorusdan, Qafandan danışırsa, demək, onun hədəfi Yerevandır. Bu gedişlə isə İlham Əliyevin Yerevanda, Qafanda qarşısına çıxacaq bir adam tapılmayacaq".

Karine Arkunyan adlı biri isə tviterdə yazıb: "Müharibədən sonrakı qorxu hələ də canımızdadır. İlham Əliyev Azərbaycan üçün lazımi addımlar atır, ərazilərin qaytarılması ilə bağlı işlər görür. Onun son çıxışında Ermənistanla bağlı dediklərini rus saytlarından oxumaq kifayətdir ki, bizi nələrin gözlədəyini təsəvvür edəsən. Bəli, İlham Əliyev Mehridə, Sünikdə bayrağını ucaltmağa hazırlaşır".

Edvard Karapetyan instaqramda Zəngəzurdan şəkil paylaşaraq qeyd edib: "Acı olsa da, reallığı İkinci Qarabağ müharibəsində gördük. Belə davam etsə, Əliyev növbəti bəyanatını Sünikdən verəcək".

Bu statuslara və şərhlərə daha çoxunu əlavə etmək olar. Göründüyü kimi, Prezident İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündən, orada səsləndirdiyi fikirlərdən xof içərisində olan ermənilər sosial şəbəkələrdə Paşinyandan hesab sorurlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***